TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri
_____________ E.M.Ağayev
"23" oktyabr 2020-ci il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**İNHALİPT-N** ağız boşluğu üçün sprey
INHALYPT-N

**Beynəlxalq patentləşdirilməmiş adı:** yoxdur.

**Tərkibi**
*Təsiredici maddə:* 1 balonda 0,75 q həll olan streptosid, 0,75 q sulfatiazol natrium heksahidrat vardır.
*Köməkçi maddələr:* timol, istiotlu nanə yağı, evkalipt yağı, qliserin, etanol 96%, polisorbat 80, saxaroza, təmizlənmiş su.

**Təsviri**
Açıq-sarı rəngdən tünd-sarı rəngə qədər, şəffaf, spesifik qoxulu mayedir.

**Farmakoterapevtik qrupu**
Respirator sistemə təsir edən vasitə. Boğaz xəstəlikləri zamanı istifadə edilən preparatlar. Antiseptiklər. Müxtəlif antiseptiklər.
**ATC kodu:** R02AA20.

**Farmakoloji xüsusiyyətləri**
***Farmakodinamikası***
İnhalipt-N antibakterial və iltihabəleyhinə təsir, eləcə də, sərinləşdirici və yayındırıcı təsir göstərir. Qeyd edilən farmakoloji xüsusiyyətlərin birləşməsi yuxarı tənəffüs yollarının və ağız boşluğunun selikli qişasının iltihabi xəstəliklərinin kompleks patogenetik terapiyasını təmin edir. İnhalipt-N orqanizmə ulserogen və ümumi toksik təsir göstərmir.
***Farmakokinetikası***
İnhalipt-N yerli istifadə üçün nəzərdə tutulub və başlıca olaraq iltihab ocağında terapevtik konsentrasiya yaradır. Sistem qan dövranına qismən sulfanilamidlər (həll olan streptosid və sulfatiazol natrium) sorulur ki, bu da, qan zülalları ilə geridönən birləşir: həll olan streptosid 12-14%, sulfatiazol natrium 55%. Biotransformasiya prosesində sulfanilamidlərin asetilləşmiş formaları yaranır ki, bunlar da, böyrəklər vasitəsilə xaric olur. Həll olan streptosidin yarımxaricolma dövrü 10 saat, sulfatiazol natriumun isə 1,2 saat təşkil edir.

**İstifadəsinə göstərişlər**
LOR-orqanlarının və ağız boşluğunun infeksion-iltihabi xəstəliklərinin (tonzillit, faringit, laringit, aftoz və xoralı stomatit) yerli müalicəsi.

**Əks göstərişlər**
Preparatın istənilən komponentinə qarşı yüksək həssaslıq, anamnezdə sulfanilamidlərə qarşı ağır toksik-allergik reaksiyaların olması.

**Xüsusi göstərişlər və ehtiyat tədbirləri**

Preparatı istifadə etməzdən əvvəl allergiyaya meylli şəxslər həkimlə məsləhətləşməlidirlər.
Həkim məsləhəti olmadan müəyyən edilmiş vaxtdan artıq istifadə etmək olmaz.
Bu qrup preparatların istifadəsinə əvvəlki reaksiya barədə həkimə məlumat verilməlidir.
Preparatın gözlərə düşməsindən çəkinmək lazımdır.
İlk istifadədən əvvəl dispers şırnaq yaranana qədər ucluğun üstünə 7 dəfəyə qədər basmaq lazımdır. Şırnaq yaranmadıqda, prosesi yenidən təkrar etmək olar.
Preparatın istifadəsindən əvvəl ağız boşluğunu ılıq qaynanmış su ilə yaxalamaq məsləhət görülür. Ağız boşluğunun zədələnmiş nahiyəsindən (xora, eroziya) steril tamponun köməyilə nekrotik ərpi təmizləmək lazımdır.
Ağız boşluğuna preparatın püskürdülməsindən sonra 15-30 dəqiqə ərzində qida qəbulundan çəkinmək lazımdır.
Preparatın istifadəsindən sonra boğazlı püskürdücünü ştokdan çıxarmaq və onu ılıq su ilə yumaq lazımdır. Balonu, onun çirklənməsinin qarşısını almaq üçün qoruyucu qapaqla bağlamaq lazımdır.
Preparatın uşaqlarda istifadəsi zamanı nəzərə almaq lazımdır ki, 1-2 püskürtməyə alınan bir dəfəlik dozanın tərkibində 0,0076-0,0152 ml etanol (96%) vardır ki, bu da, bir dəfəlik istifadə təşkil edir: 3-5 yaşlı uşaqlarda (bədən çəkisi 15-21 kq) 0,0004-0,0013 ml/kq, 6-12 yaşlı uşaqlarda (bədən çəkisi 21-38 kq) 0,0002-0,0007 ml/kq.
Dərman vasitəsinin tərkibində saxaroza vardır, fruktozaya qarşı nadir irsi dözümsüzlüyü, qlükoza-qalaktoza malabsorbsiyası sindromu və ya saxaraza-izomaltaza çatışmazlığı olan pasiyentlərdə bu preparatdan istifadə etmək olmaz.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**

Pasiyent hər hansı dərman vasitəsi qəbul etdiyi halda, preparatın sonrakı istifadəsinin mümkünlüyü ilə bağlı mütləq həkimlə məsləhətləşməlidir.
Paraaminobenzoy turşusunun törəmələrilə (novokain, anestezin, dikain) eyni vaxtda istifadəsi zamanı preparatın mikrobəleyhinə təsirinin zəifləməsi mümkündür.

**Hamiləlik və laktasiya dövründə istifadəsi**

Hamiləlik və laktasiya dövründə preparatın istifadəsi, yalnız həkim nəzarəti altında və fayda/risk nisbəti qiymətləndirildikdən sonra dozalanma rejiminə ciddi riayət etməklə mümkündür.

**Pediatriyada istifadəsi**

Dərman vasitəsini 3 yaşa qədər uşaqlarda istifadə etmək olmaz. Tərkibində evkalipt və istiotlu nanənin efir yağları olması ilə əlaqədar olaraq, reflektor bronxospazmın inkişafının mümkünlüyü ilə bağlı 3 yaşdan yuxarı uşaqlarda ehtiyatla istifadə etmək lazımdır. Uşaqların müalicəsi həkim müşahidəsi altında aparılmalıdır.

**Nəqliyyat vasitələrini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri**

Preparat nəqliyyat idarə etmək və digər potensial təhlükəli fəaliyyət növlərilə məşğul olmaq qabiliyyətinə təsir etmir, lakin avtonəqliyyat idarə edən sürücülər alkoqolun təyini nəticələrini təhrif edə bilməsini nəzərə almalıdırlar.

**İstifadə qaydası və dozası**

Böyüklərdə və 3 yaşdan yuxarı uşaqlarda ağız boşluğunun selikli qişasında və püskürtmək yolu ilə burun-udlaqda yerli istifadə edilir.
Böyüklərə püskürtmə sutkada 3-4 dəfə təyin edilir.
3 yaşdan yuxarı uşaqlarda həkimin xüsusi göstərişi olmadıqda, püskürtmə sutkada 1-2 dəfə aparılır. Preparatın istifadəsinin müddəti xəstəliyin gedişatından asılıdır və adətən 3-10 sutka təşkil edir.

İstifadəsinin tezliyi və müddəti həkim tərəfindən fərdi təyin edilir və xəstəliyin ağırlıq dərəcəsindən asılıdır.

*Balondan istifadə qaydası*

1. Qoruyucu qapağı balondan çıxarmaq lazımdır.
2. Balona qutuya qablaşdırılan boğazlı ucluğu (püskürdücünü) əvvəlcədən onun təmizliyinə əmin olmaqla, taxmaq lazımdır.
3. Balonu bir neçə dəfə çalxalayıb və dispers şırnaq yaranana qədər 7 dəfəyə qədər püskürdücünün üzərinə basmaq lazımdır. Şırnaq yaranmadıqda, prosesi yenidən təkrar etməyə icazə verilir.
4. Püskürdücünün sərbəst ucunu ağız boşluğuna yeritmək və balonu şaquli vəziyyətdə saxlayaraq, püskürdücünün üstünə basmaq lazımdır. Bir seansa İnhalipt-N-nin 2-3 püskürdülməsi həyata keçirilir.
5. Püskürtmə bitdikdən sonra püskürdücünü balonun ştokundan cıxarmaq və çirklənmənin qarşısını almaq üçün balonu qoruyucu qapaqla bağlamaq lazımdır.
6. Püskürdücünü təmiz saxlamaq lazımdır, preparatın istifadəsindən sonra onu ılıq su ilə yumaq və isti yerdə qurutmaq lazımdır.

**Əlavə təsirləri**

*İmmun sistemdə baş verən pozğunluqlar:* angionevrotik ödem, bronxospazm daxil olmaqla, allergik reaksiyalar.

*Dəridə baş verən pozğunluqlar:* səpgi, qaşınma, övrə, kontakt nahiyəsində ödem.

*Həzm sistemində baş verən pozğunluqlar:* ürəkbulanma, qusma, yerli effektlər (ağızda yanma, boğazda yığıntı və ya qıcıqlanma).

*Digər:* ümumi zəiflik, tənəffüsün çətinləşməsi.

İstənilən əlavə təsirin və ya qeyri-adi reaksiyaların təzahürü zamanı preparatın sonrakı istifadəsi ilə bağlı həkimlə məsləhətləşmək lazımdır.

**Doza həddinin aşılması**

Doza həddinin aşılması halları qeyd edilməyib. Əlavə təsirlərin effektinin güclənməsi mümkündür.

*Müalicəsi*

Preparatın ləğv edilməsi, ağız boşluğunun qaynanmış ılıq su ilə yaxalanması.
Simptomatik terapiya.

**Buraxılış forması**

30 q məhlul, püskürdücü və qoruyucu qapaqlı balonda. 1 balon, içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.

**Saxlanma şəraiti**

25°C-dən yüksək olmayan temperaturda, oddan uzaq və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**

2 il.

Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Aptekdən buraxılma şərti**

Reseptsiz buraxılır.

**İstehsalçı/Qeydiyyat vəsiqəsinin sahibi**

“Mikrofarm” MMC.
Ukrayna, 61013, Xarkov ş., Şevçenko k., 20.